# İslamda İnsan Haqları: Tarixi Köklər və Nəzəri Əsaslar

**Hüseyn Əsədov**[1]

## Abstrakt

Hüquq mövzusu İslamda dərin tarixi köklərə və mərhələlərə malikdir. İnsan haqlarının tarixi insanın yaranışı ilə başlayır. İlahi dinlərin, xüsusilə də İslamın təlimlərində insan haqlarının müdafiəsi, insan ləyaqətinin qorunması və ictimai ədalətin bərqərar olması əsas prinsiplər sırasındadır. Bu məqalədə İslamın zühur etdiyi dövrdə ərəb cəmiyyətində insan haqlarının vəziyyəti, Quran və Nəhcül-Bəlağədə insan haqları ilə bağlı təlimlər, İslamın insan haqları sahəsində tarixi töhfələri və Qərb mütəfəkkirlərinin bu barədə etirafları təhlil edilir. Məqalədə həmçinin İslamda insan haqlarının sistemləşmə prosesi, tarixi inkişaf mərhələləri və müasir dövrdəki vəziyyəti araşdırılır.

**Açar sözlər:** İslam, insan haqları, insan ləyaqəti, Quran, Nəhcül-Bəlağə, ictimai ədalət, tövhid, məad

---

[1] - Dil və Fars Ədəbiyyatı ixtisasının tələbəsi, Dil və Fars Ədəbiyyatı İnstitutu, Əl-Mustafa Beynəlxalq Virtual Universiteti, Qum, İran / Hoseinasadov@gmail.com

## Giriş

Qərb düşüncəsinin əksinə olaraq, insan haqları dinlərdə ümumdünyəvi keçmişə və müxtəlif fəlsəfələrə malikdir. Bu yanaşma ilə aydın olur ki, insan haqlarının tarixi insanın yaranış gününə qədər uzanır. İnsan haqları düşüncələri və onu qorumaq, ilahi dinlərdə və xüsusilə də İslamda çox aydın şəkildə özünü büruzə verir. Belə ki, yaradılış barədə düşünməyə dəvət, insana həyat bəxş edən nüanslar və bəşər həyatının müdafiəsi, dinin ən mühüm təlimləri və ictimai ədalətin bərpası üçün insanların hidayəti, Allah elçilərinin ən böyük missiyalarından olmuşdur.

İslamın fundamental hədəfləri və mesajları göstərir ki, bu müqəddəs dinin təlimləri insan haqlarının inkişafında böyük rol oynayıb və oynayır. Belə ki, Allah dininin qanunvericilik sistemində hədəf tövhidin yayılması, insanların haqqa tərəf hidayəti, insan haqlarının müdafiəsi və zülmkar tağutlarla mübarizədir. Allah elçilərinin ictimai ədalətin bərqərar olması və ictimai təbəqələşmənin qarşısını almaq üçün etdiyi təlaşlar, bəşər tarixinin ən üstün addımları hesab edilir.

## 1. Qurani-Kərimə Görə İslamın Zühuru Dönəmində İnsan Haqlarının Vəziyyəti

Mövzu üzrə mütəxəssislər və hətta inqilab tarixlərini azacıq seyr edən hər kəs bilir ki, İslamda insan haqları layihəsi, Qərbin insan haqları və siyasi düşüncələrinin müqabilində müdafiə mövqeyində durmayıb. İslamın fundamental mənbələrinə müraciət etməklə bu dinin insan haqları mövzusuna yanaşmasını asanlıqla anlamaq və İslam fəqihlərinin insan haqlarına nəzəri və praktiki töhfələrini görmək olar.

Yaşam haqqı, insan ləyaqəti, bərabərlik, ictimai ədalət, insan təlim və tərbiyəsi, təhlükəsizlik, əməkdaşlıq, mülkiyyətə ehtiram,

zülmkarlarla mübarizə və məzlumlara dayaq kimi düşüncələr və prinsiplər İslamın hüquqi və siyasi məfhumlarındandır.

## 1.1. Tarixi Kontekst

İslam dininin zühur etdiyi dövr, Avropanın birlik halında təsirə malik olduğu və dəyişikliklər etməyə qadir olduğu bir vaxta təsadüf etmişdir. Buna baxmayaraq, o dönəmdə bütövlükdə Avropanın, Asiyanın və Afrikanın əksər hissəsi zülmət içərisində çabalayır, mədəniyyət, sivilizasiya və insan haqları baxımından qənaətbəxş vəziyyətdə deyildi. Avropa xalqı, "mədəniyyət böhranı" adlandırılan orta əsrlərə qədər kilsə rəhbərlərinin və feodal hakimiyyətinin təhdidi altında düşünməyə və öz əqidələrini bəyan etməyə qadir deyildi.

İslam Peyğəmbərinin (s) bəşəriyyəti düzgün yola hidayət etmək üçün seçildiyi zaman, insanlığın və insan ləyaqətinin unudulduğu bir dönəm idi. Şirk və bütpərəstlik, totalitarizm və insanlıq böhranı hər növ təfəkkür və müsbət dəyişiklik fürsətini aradan aparmışdı. Bəşər həyatında insan hüquqlarına ehtiramın heç bir tərifi və yeri yox idi. İslam belə bir zamanda zühur etdi və ərəblərin, o cümlədən İslam dininə üz tutan bütün insanların həyatında inqilaba yol açdı.

## 1.2. Quranın "Onluq Göstərişləri"

Allah-Təala belə bir vəziyyət və şəraitdə Peyğəmbəri insanların hidayəti üçün seçib, hidayət bəxş edən İslam hökmlərini insanlara çatdırmasını əmr etdi. **Ənam surəsinin 151-153-cü ayələrində** bu hökmlər belə bəyan edilir:

*"De: "Gəlin, Rəbbinizin sizə nələri haram etdiyini oxuyum: Ona heç nəyi şərik qoşmayın, valideynlərə yaxşılıq edin və yoxsulluq ucbatından uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk. Murdar əməllərin aşkarına da, gizlisinə də*

*yaxınlaşmayın. Allahın, öldürülməsini haram buyurduğu şəxsi haqsız yerə öldürməyin. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə anlayasınız.*

*Yetim həddi-buluğa çatana qədər, – xeyirxahlıq məqsədilə istifadə etmək istisna olmaqla, – onun malına yaxınlaşmayın! Ölçüyə və çəkiyə ədalətlə tam riayət edin. Biz hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər yükləyərik. Söz söylədiyiniz zaman, qohumunuz olsa belə, ədalətli olun. Allah qarşısındakı əhdə sadiq qalın. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə düşünüb ibrət alasınız.*

*Bu, Mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Çünki, o yollar sizi Allahın yolundan uzaqlaşdırar. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə pis əməllərdən çəkinəsiniz."*

Bu ayələr bir tərəfdən bə'sət dönəmində yaşayan insanların ruhiyyəsini, əxlaqını, xəstə düşüncəli adətlərini və insan haqlarının pozulmasını, digər tərəfdən isə keçici əxlaqi xəstəliklərin müalicəsi və insan haqlarının təminini ən gözəl şəkildə izah edir.

### 1.3. "Onluq Göstərişlər"in Təhlili

Bu "onluq göstərişlər" **"tövhid"**lə başlayır və **"əhdə vəfa"** prinsipi ilə sona çatır. Çünki tövhid və əhdə vəfa prinsipi insan haqlarının fundamenti və bəşəriyyətin bütün sağlam islahatlarının əsasını təşkil edir. Əksinə, şirk və əhdi sındırmaq bütün ictimai fəsadların mənşəyi və insan haqlarına zərbə vuran ən böyük amildir.

Bu hökmlərin icra *olunduğu* cəmiyyətdə insanlıq çiçəklənər və insan haqları bütövlükdə təmin olar. Bu həqiqət İslamın ilk dövrlərində özünü göstərdi. Yuxarıdakı ayəni oxumaqla

nəinki **Xəzrəc qəbiləsinin başçıları Əsəd ibn Zurarə və Zəkvan ibn Əbduqeys** dəyişdi, hətta Mədinənin (Yəsrib) taleyi həll oldu. Peyğəmbərin Quran ayəsini Əsədə oxuduğu zaman onun daxilində inqilab oldu və iman gətirərək dedi:

*"Ey Allahın Rəsulu! Atam və anam sənə qurban! Mən Yəsribliyəm və Xəzrəc qəbiləsindənəm. Bizim "Ovs" qəbiləsi ilə aramızda uzun sürən müharibələr nəticəsində qəbiləmiz zəifləyib. Bəlkə sizin köməyinizlə aramızdakı qırılan bağları düzəldək."*

Onun dostu Zəkvan da İslamı qəbul etdi və Allahın hökmlərini xalqa çatdırmaq və insanları İslam dininə dəvət etmək üçün Peyğəmbərdən bir neçə nəfəri Mədinəyə göndərməsini xahiş etdi. Peyğəmbər **Məsəb ibn Əmiri** onlarla birlikdə Mədinəyə yolladı. O zamandan Mədinə şəhəri İslam və İslam hökumətinin qərargahı oldu və oranın siyasi və ictimai vəziyyəti tamamilə dəyişdi.

## 2. Nəhcül-Bəlağədə İslamın Zühuru Dönəmində İnsan Haqlarının Vəziyyəti

İmam Əli (ə) bəşəriyyətin bə'sət dönəmindəki vəziyyətini belə bəyan edir:

*"Sübhan olan Allah Həzrəti Muhəmmədi (s) elə bir vaxtda peyğəmbərliyə seçdi ki, dünya özünün son mərhələsinə çatmış, axirətin nişanələri yaxınlaşmış, dünya qaranlığa çevrilmiş və öz əhlini gücdən salmışdı. Dünya yoxluğa hazırlaşır və sonluğunun nişanələrini aşkar şəkildə göstərirdi. Varlıqlar ölüm astanasında idi, onun həyat zənciri qırılmış, dünya bayraqları köhnəlmiş və yırtılmış, ömürlər qısalmışdı."* (Nəhcül-Bəlağə, Xütbə 89)

Başqa bir yerdə isə bə'sət dönəmində cəmiyyətin halını aşağıdakı kimi şərh edir:

*"Allah-Təala peyğəmbəri elə bir zamanda göndərdi ki, öncəki peyğəmbərlərin* bə'sətindən *bu yana millətlər dərin yuxuya qərq*

*olmuşdular. Dünya fitnə və fəsada bürünmüş, çirkin əməllər artmış, müharibə atəşi hər yanı alova bürümüş, dünyanın nuru sönmüş, yalan və məkrlərlə dolmuşdu. Həyat ağacı solmuş və daha bar vermirdi. Həyat suyu qurumuş, hidayət nişanələri köhnəlib aradan getmişdi. Azğın və həlakedici bayraqlar aşkar olmuş, dünya pis qiyafəsi ilə camaata baxır, qəmgin və sərt şəkildə öz əhli ilə üz-üzə dayanmışdı. Cahiliyyət dönəmində dünya ağacının meyvələri fitnə və murdar yem idi. Daxilində vəhşət, iztirab, xaricində isə hökumətin zülm qılıncları var idi."* (Nəhcül-Bəlağə, Xütbə 26)

**3. İslamda İnsan Haqlarının Quruluşu və Qanunvericilik Sisteminə Çevrilməsi**

İslamda insan haqları vəhy mənşəyinə malikdir. Quranın nazil olması və Peyğəmbər dövründə bu müqəddəs kitabın ayələrinin toplanması, insanın qorunmasının və İslamda insan haqlarının sistemləşdirilməsinin başlanğıc nöqtəsidir. Peyğəmbərin (s) metodunun praktikaya tətbiqi ilə təkmilləşdirici işlər görüldü və insan haqlarının sistemləşməsi yönündə böyük addımlar atıldı. İnsan haqlarına aid olan ayə və hədislər İslam hüququnda mühüm bir fəsil təşkil edir.

Hicrətin üçüncü və dördüncü yüzilliklərində İslami fiqh və əxlaqın sistemləşməsi baş *verdi*. Bu dönəmdə **Şeyx Tusi**yə aid olan fiqhi və əxlaqi kitablarda insan haqları məsələləri öz əksini tapdı. İslam fiqhinin sonrakı mərhələlərində insan haqları təfəkkürü müsəlman fəqihlərinin və hüquqşünaslarının daima əsas müzakirə obyekti olmuşdur.

Bu tərzlə, İslamda insan haqlarının tarixi ilk onilliklərə (miladi təqvimlə VII əsrin ikinci yarısı) qayıdır ki, bu da Qərb insan haqları bəyannamələri ilə müqayisədə **on iki əsr daha qədimdir**.

İslamın ən mühüm təlimlərindən biri də insan haqlarının əqidə ilə möhkəm bağlılığıdır. **Tövhid** (Allaha inam), **məad** (ölümdən sonrakı həyata inam), **hikmət** (hədəfli yaradılış) və **dünya ilə axirətin rabitəsi** prinsipləri insan haqlarının fundamentlərindəndir. Allahı yaradılışın mənbəyi, Xaliq və hikmətli qanun qoyan hesab *edən*, Onun haqlarını insan haqlarının mənşəyi bilən, insan həyatını bu dünya ilə bitdiyinə inanmayan və axirətə imanı olan şəxs, Allah bəndələrinin də haqqını tanıyır və ona riayət edir.

## 4. İslam Tarixində İnsan Haqlarının Keçid Mərhələləri

İslam, millətlərin bir-birinin yanında dinc yaşamasının təməlini qoyan və protestantlıqdan (xristianlığın daxilində islahatçı hərəkat) min il əvvəl, digər dinlərlə əməkdaşlıq, onlarla birgə dinc yaşamaq və insanların haqqına riayət etməyə çağırmışdır.

### 4.1. Peyğəmbər (s) Dövründə İnsan Haqları

Peyğəmbərlik dövrünün başlanğıcı dəyərlər, siyasi və hüquqi inqilabların təcəllisi bütün sahələrdə, o cümlədən insan haqlarında özünü göstərdi. İslamın insana verdiyi dəyər və Peyğəmbərin (s) hakim mövqedə olmasına baxmayaraq insanlarla rəftarı, onların əqidəsindən, dinindən, dilindən, irqindən və cəmiyyətdəki statusundan asılı olmayaraq hamıya eyni münasibət göstərməsi bəşəriyyət tarixində misli görünməmişdir.

Peyğəmbərin (s) öz dostlarının ətrafında sadə və təvazökar oturması, cəmiyyətin məhrum təbəqəsinə yardımı, irqi ayrıseçkiliklə mübarizəsi, Mədinə yəhudiləri ilə əlaqəsi və onların İslam cəmiyyətində qəbulu, yəhudilərin cənazəsinə ehtiram göstərməsi, özünü digərlərindən üstün bilməməsi və gözəl insani xislətləri, Peyğəmbəri (s) bəşəriyyət tarixinin ən gözəl nümunəsinə çevirdi.

## 4.2. Həbəşistana Hicrət və Cəfər ibn Əbu Talibin Müdafiəsi

İslamın ilk dövrlərində mühacirlərdən ibarət müsəlmanların sözçüsü olan **Cəfər ibn Əbu Talibin** Həbəşistanda İslamın maarifləndirici təlimlərini izah etməsi diqqətəlayiqdir. Həbəşistanın rəsmi şəxslərindən biri Cəfərdən soruşur:

*"Niyə öz əcdadlarının dinindən üz döndərib, bizim dinimizə heç bir oxşarlığı* olmayan *bir dinə keçdiniz?"*

Cəfər belə cavab verir:

*"Biz nadan və bütpərəst xalq idik. Pisliklərdən çəkinmir və daima çirkin işlərlə məşğul olurduq. Qonşuların bizim yanımızda heç bir ehtiramı yox idi, öz yaxınlarımızla daima müharibə və dava şəraitində yaşayırdıq. Bu acınacaqlı vəziyyətdə yaşadığımız bir vaxtda bizim içimizdən parlayan, keçmişə sahib və əmanətə sadiq olan biri Allahın əmri ilə qalxaraq bizi tövhidə dəvət etdi, bütpərəstliyi rədd etdi və bizə əmanətə sadiq qalmağı, pisliklərdən çəkinməyi, yaxınlar və qonşularla gözəl rəftar etməyi, onlara yaxşılıq etməyi tövsiyə etdi. Bizi qan tökməkdən, yalandan şəhadət verməkdən, yetimlərin malını yeməkdən, qadınların adına pis sözlər çıxartmaqdan və qeyri-qanuni uşaq dünyaya gətirməkdən çəkindirdi. Habelə, bizi namaz qılmağa, oruc tutmağa və malımızın vergilərini ödəməyə dəvət etdi. Biz də ona iman gətirdik, tək olan Allaha sitayiş etdik və onun bütün göstərişlərinə iman gətirdik. Onun halalını halal, haramını isə haram bildik."*

Cəfərin bu ilhamlandırıcı və gözəl bəyanı dinləyicilərə böyük təsir etdi və nəticədə müsəlmanlara azadlıq verildi.

## 4.3. İmam Əlinin (ə) İnsan Haqlarına Dair Təlimləri

Peyğəmbərin (s) insan haqları barəsindəki düşüncələri öz dinamikliyi ilə inkişaf etdi, onun dostları və risalət məktəbinin yetirmələri bu yolda davam etdilər. Bu arada **İmam Əli**

**(ə)** digərlərindən daha çox dəyərli və təqdirəlayiq işlər gördü. Bunu Rəsulallah məktəbinin ən kamil yetirməsi olan Əmirəl-möminin (ə)-in, Misir valisi təyin etdiyi **Malik Əştərə** yazdığı məktubda görə bilərik:

*"Öz qəlbini xalqa mehriban davranmaqla ört, hamı ilə dost və mehriban ol. Əsla yırtıcı heyvanlar kimi onların haqqını yeməyi özünə qənimət bilmə. Çünki insanlar iki qrupdur: bir dəstəsi sənin din qardaşların, digərləri isə yaradılışda və insanlıqda səninlə bərabərdirlər."* (Nəhcül-Bəlağə, Malik Əştərə məktub)

İnsanın hüquq və azadlığının müdafiəsi, ayrıseçkiliklə mübarizə, ictimai ədalətin bərpası uğrunda mübarizə İmam Əlinin (ə) ən dəyərli işlərindəndir.

## 4.4. Əməvilər və Abbasilər Dövründə İnsan Haqları

Təəssüflər olsun ki, **Əməvilər sülaləsinin** iş başına gəlməsi ilə İslam idarəçiliyi səltənət sisteminə çevrildi. İslam dəyərlərinin təhrifi və qüdrətin maliyyə və zor gücünə ələ keçməsindən yaranan problemlər, təbəqələşmə, ayrıseçkilik, İslam maarifindən uzaq düşən məntəqələrin üzərində hakimiyyətin qurulmasına səbəb oldu. İnsan ləyaqəti, bərabərlik, azadlıq və insan haqlarına ehtiram tədricən unuduldu.

Əməvilərin inhisarçılıq və qeyri-insani rəftarlarının əleyhinə qiyam edən **Abbasilər** sonralar özləri daha da hiyləgər şəkildə eyni yolu getdilər. Bu dəfə insanlar ayrıseçkiliyin və ehtiramsızlığın digər formaları ilə qarşılaşdılar. Bəni Üməyyə xürafi ruhiyyə və milliyyətçilik kimi səhv düşüncəyə malik olduqları üçün insanların hüquqlarını pozurdusa, Bəni Abbas isə Peyğəmbərin nəslindən olduqlarını iddia edərək ayrıseçkiliyə yol verdilər.

## 4.5. Osmanlı Dövrü və Sonrası

**Osmanlı imperatorluğu** dönəmində İslam dəyərlərindən uzaqlaşma daha da şiddətləndi. Osmanlı türklərinin ədalətsiz rəftarı və ayrıseçkiliyi, İslamdan ekstremist və müharibə sevən bir sima kimi təqdim olunmasına səbəb oldu. Osmanlı hakimlərinin səhv addımları "qılınc və müharibə dini" anlayışının yayılmasına, digər tərəfdən isə müxtəlif yanlış təbliğatlar nəticəsində bəzi yanlış fikirlərin meydana gəlməsinə rəvac verdi.

Bəziləri isə bu yanlış zehniyyəti aradan qaldırmaq üçün atdıqları addımlarda ifrata yol verdilər. Məsələn, cihad prinsipini, edam hökmünü və digər fundamental məsələləri inkar edərək "yumşaq İslam" siması yaratmağa çalışdılar. Halbuki, İslam həm zülm etməyi, həm də zülmə boyun əyməyi qadağan edir: *"Nə zülm edin, nə də zülmə boyun əyin..."* (Bəqərə, 279)

Son iki əsrdə Qərbin siyasi istismarı və mədəni hücumları nəticəsində müsəlmanların əksəriyyəti İslama qarşı yadlaşma və böhrana düçar olmuş, İslamın insan haqları ilə bağlı tövsiyələrini unutmuş, müsəlmanlar arasında yeni düşüncə adı altında yad fikirlər yayılmışdır. Bəzi mütəfəkkirlər müsəlman hüququ və fərdi azadlıq mövzusunda Qərbin insan haqları konsepsiyalarından təsirlənmişlər.

Lakin bir çox İslam ölkələrinin qanunlarında İslam standartlarına və şəriətə uyğun olaraq hökmlər çıxarılmasına riayət olunmuşdur. Müasir dövrdə İslam ölkələrinin verdiyi qərarlar **İslam Əməkdaşlıq Təşkilatının "İslam İnsan Haqları" bəyannaməsinə** əsaslanır.

## 5. Qərb Mütəfəkkirlərinin İslamın İnsan Haqlarına Dair Töhfələri Haqqında Etirafları

İtaliyanın Napel Universitetində ərəb ədəbiyyatı və İslam sivilizasiyası tarixi üzrə müəllim olan **Vaqleri** belə deyir:

*"Biz bu (Quran) kitabda elm mədənləri görürük. Bunlar ən böyük zəkaya sahib olanların, ən böyük filosofların və ən güclü hüquqşünasların tutumundan və istedadından daha böyükdür. Bizi heyran edən tək bu dinin bəşəriyyətin ehtiyaclarını ödəmək üçün onun istəkləri ilə uyğun olması, insanın onun sığınacağında yaşaması üçün ən ali qanun olaraq şəriəti təşkil etməsi deyil, hətta bundan daha üstün addımlar atıb və həyat fəlsəfəsini də ortaya qoyur... İslam qanunlar toplusu kimi tanınan şəriət, qaydalardan və rəsmiyyətdən ibarət deyil, şəriət bütün fərdi və ictimai həyatın təzahürüdür."*

Məşhur tarixçi **Vil Durant** deyir:

*"İslam dini 5 əsr ərzində (700-1200-cü illər) müdriklik və güc, hökumət dairəsinin genişlənməsi, həyat tərzi, insaflı və insani qanunların tətbiqi, dini təhsil, elm tələbələri yetişdirmə, tibb və fəlsəfə elmlərində dünya birincisi idi... Belə nəzərə çarpır ki, müsəlmanlar xristianlardan daha çox iftixara malik olublar. Əhd və peymana daha çox riayət edirdilər, məzlumlara qarşı daha rəhimli idilər. Xristianlar Beytül-Müqəddəsin fəthi zamanı (1099-cu il) kifayət qədər qanlı cinayətlərə əl atmışdılar. İslam, xristian dünyasının bir çox sahələrində gözə çarpacaq qədər nüfuza sahib olmuşdur. Xristian Avropası yeməklər, dərman preparatları, silah, ailə qanunları, səliqə, sənət, ticarət və texniki avadanlıqları, dəniz yollarının qanunlarını və s. İslamdan öyrənmiş və əsasən onların adlarını da müsəlmanlardan götürmüşlər."*

Həmçinin, tənqidlərindən çox az dinin amanda qaldığı ingilis mütəfəkkiri **Corc Bernard Şou** İslam barəsində belə hökm edir:

*"İslamın hamı* tərəfindən *qəbul olunmasının əsas səbəblərindən biri onun ciddi şəkildə insan hüquqlarının müdafiəsinə qalxmasıdır. İslam bu sahədə o qədər güclüdür ki,*

*bənzəri yoxdur. Yunan, Roma, inkişaf etmiş ölkələr və hətta Amerika və Avropa bu istiqamətdə İslamla bərabər ola bilməzlər. Mən sabahın Avropasının Məhəmmədin imanını qəbul edəcəyini proqnozlaşdırır və onun nişanələrini görürəm."*

Habelə, **Rane Genun** 1950-ci ilin sentyabrında Fransada çap olunan "Tanınmamış Sivilizasiya" kitabında yazır:

*"...Bəziləri tarixçilərin bir çox əmrlərdən və məzhəbçi təfəkkürdən qaynaqlanan sükutunun səbəbini bilmək istəyirlər. Bəs dinsiz və din əleyhdarı olan müasir tarixçilərə nə demək olar? Onlar özlərindən əvvəlkilərin reallıqların əksinə dediklərini təsdiqləyirlər. Həqiqətləri və Şərqin boynunda* olan dinin *əhəmiyyətini tanımağa qürur və eqoistlik mane olur. Bu sahədə daha təəccüblü məqam budur ki, avropalılar özlərini Yunan sivilizasiyasının birbaşa varisləri hesab edirlər. Halbuki reallıqlar bu iddianın əleyhinədir. Məsələnin həqiqi tərəfi budur ki, Yunan elmi və fəlsəfəsi müsəlman mütərcimlərinin əli ilə Avropaya gəlib çatıb."*

## Nəticə

İslam dini insan haqları sahəsində bəşəriyyətə misilsiz töhfələr vermişdir. Qurani-Kərimdə və Nəhcül-Bəlağədə öz əksini tapan insan haqları ilə bağlı təlimlər, bu sahədə İslamın nə qədər qabaqcıl mövqedə olduğunu göstərir. Peyğəmbərin (s) "onluq göstərişləri" adlanan və Ənam surəsində qeyd olunan prinsiplər, insan haqlarının ən qədim və ən kamil ifadəsidir.

İslamda insan haqları vəhy mənşəyə malikdir və tövhid, məad, hikmət kimi əqidə prinsipləri ilə sıx bağlıdır. Bu xüsusiyyət İslamın insan haqları konsepsiyasını Qərb insan haqları anlayışından əsaslı şəkildə fərqləndirir.

İslam tarixinin müxtəlif dövrlərində, xüsusilə Peyğəmbər (s) və İmam Əli (ə) dövründə insan haqları ən yüksək səviyyədə qorunmuş, sonrakı dövrlərdə isə bu dəyərlər müxtəlif səbəblərdən zəifləsə də, tamamilə unudulmamışdır.

Qərb mütəfəkkirlərinin etirafları da göstərir ki, İslam sivilizasiyası insan haqları, hüquq, elm, fəlsəfə və digər sahələrdə Qərbə böyük təsir göstərmişdir. Bu gün də İslam ölkələri öz qanunvericilik sistemlərində İslamın insan haqları prinsiplərinə əsaslanmağa çalışırlar.

İslamın insan haqlarına dair təlimləri bugün də öz aktuallığını qoruyur və bəşəriyyət üçün ən mükəmməl həyat tərzini təqdim edir.

## Ədəbiyyat

Qurani-Kərim – A. Mehdiyevin tərcüməsi, Bakı, 2009
Nəhcül-Bəlağə – İmam Əlinin (ə) kəlamları, (müxtəlif nəşrlər)
Təbatəbayi, Məhəmmədhüseyn, "Əl-Mizan", Qum, 1389 (h.q.)
Məkarim Şirazi, "Təfsire-Nümunə", Qum, 1390 (h.q.)
Durant, Vil, "Sivilizasiya Tarixi" (müxtəlif nəşrlər)
Loben, Qustav, "İslam və Ərəb Sivilizasiyası"
Şou, Corc Bernard, "İslam Haqqında"
Buazar, Marsel, "İslam və Qərb"
Genun, Rane, "Tanınmamış Sivilizasiya", Fransa, 1950
Vatt, Montqomeri, "İslamın Təsiri"
Vaqleri, "İslam Sivilizasiyası Tarixi"
"İslam İnsan Haqları Bəyannaməsi", İslam Əməkdaşlıq Təşkilatı